

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 151 (23.793)

*20 avqust 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Koreya Respublikası Milli Assambleyasının sədri Park Byonq-Soqun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev bildirib ki, ölkələrimizi dostluq əlaqələri birləşdirir və müstəqillik dövründə Koreya-Azərbaycan əlaqələri daim uğurla inkişaf etmişdir. Yüksək səviyyəli qarşılıqlı rəsmi səfərlər həyata keçirilmiş və siyasi əlaqələrimizin inkişafı üçün çox önəmli addımlar atılmışdır.

Dövlətimizin başçısı Koreya şirkətlərinin azad edilmiş torpaqlarda icra olunacaq layihələrə dəvət edildiyini, parlamentlərarası əlaqələrimizin inkişafı üçün yaxşı imkanlar olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, görüşlərin nəticələri çox müsbət olacaq və nəticə etibarilə, əlaqələrimizin inkişafı istiqamətində növbəti uğurlu addım atılacaqdır.

Koreya Respublikası Milli Assambleyasının sədri Park Byonq-Soq deyib ki, növbəti il Azərbaycan ilə Koreya arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olur, əlaqələrimizin potensialı isə hazırkı inkişaf səviyyəsindən daha artıqdır.



## Naxçıvan Muxtar Respublikasının strateji yüksəkliklərində müdafiə istehkamları möhkəmləndirilib

Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter almışdır. Xalqımızın mübarizə və qəhrəmanlıq tarixini özündə yaşadan Naxçıvan bu gün etibarlı müdafiə olunur. Bunun nəticəsidir ki, İkinci Qarabağ müharibəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları böyük şücaət göstərmiş, ərazi bütövlüyümüzün təmin olunmasında iştirak etmişlər. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin də dediyi kimi: ***"Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının gücləndirilməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır".***



Ordu quruculuğu istiqamətində aparılan islahatlar nəticəsində yüksək dağ şəraitində yerləşən hissə və bölmələrimizdə nümunəvi xidmət şəraiti yaradılmışdır. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq muxtar respublikanın əsas müdafiə istehkamı sayılan Təkəqaya və Soyuq bölgələrindəki hərbi birləşmələrin məişət şəraiti xeyli yüksəldilmişdir.





Avqustun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Təkəqaya və Soyuq bölgələrində olmuş, ön xətdə xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanmışdır.

Ali Məclisin Sədri əsgərləri salamlamış, çətin dağlıq şəraitdə xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə onlara təşəkkürünü bildirərək demişdir: Ölkəmizin sərhədlərinin qorunması ordumuzun qarşısında duran əsas vəzifədir. Buranın da strateji ərazi olduğu nəzərə alınaraq 2014-cü ildə postların yaradılması və xidmətin təşkili barədə qərar verildi. Artıq 7 ilə yaxındır ki, Azərbaycan əsgəri çətin dağlıq şəraitdə fasiləsiz xidmət aparır, qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirir.



Ali Məclisin Sədri demişdir: 3700 metr yüksəklikdə xidmət aparmaq cəsarət və dözümlülük, bu cür strateji yüksəkliyin əldə saxlanması isə böyük qəhrəmanlıq tələb edir. Siz bunları yerinə yetirdiniz və göstərdiniz ki, Azərbaycan əsgəri qarşıya qoyulan tapşırıqları yerinə yetirməyə qadirdir.

Ali Məclisin Sədri nümunəvi xidmətlərinə görə şəxsi heyətə təşəkkür edərək demişdir: Yüksəkliklərdə xidmətin yaxşı təşkil olunması qələbələrin təməlidir. Əvvəllər bu ərazidə əsgərlər çətin şəraitdə xidmət aparırdılar. Bu gün xidmətinizi layiqincə yerinə yetirməyiniz üçün hər cür şərait yaradılıb. Həm əvvəllər, həm də indi əsgər və zabitlər bu ərazidə xidməti vəzifələrini layiqincə yerinə yetiriblər. Əminik ki, sizdən sonra xidmət edənlər də bu ənənəni davam etdirərək muxtar respublikamızın, ümumilikdə, ölkəmizin strateji yüksəkliklərini layiqincə qoruyacaqlar.

Əsgər Sənan Babayev demişdir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarının yüksəkliklərində xidmət etməyimizlə fəxr edir, bizə göstərilən müntəzəm diqqət və qayğıya görə öz minnətdarlığımızı bildiririk. Əmin edirik ki, bundan sonra da əzəli torpaqlarımızın keşiyində mərdliklə dayanacaq, sərhədlərimizi göz bəbəyimiz kimi qoruyacağıq.

Əsgərlərdən Ceyhun Yusifov və Azər Gəncəliyev demişlər: "Bizimlə görüşə gəldiyiniz üçün əsgər yoldaşlarımız adından öz minnətdarlığımızı bildiririk və bu bizdə böyük ruh yüksəkliyinə və sevincə səbəb oldu. Sizi əmin etmək istəyirik ki, yeni zəfərlər qazanmaq üçün hər an əldə silah mübarizəyə qalxmağa, tarixi torpaqlarımızda qələbə bayrağı sancmağa daim hazırıq".

Əsgər Qurban Məmmədov demişdir: "Yüksəkliklərdə xidmətin təşkili üçün hər cür şərait yaradılmışdır. Söz veririk ki, bundan sonra da əmr və tapşırıqların yerinə yetirilməsinə daim hazır olacağıq. Səbirsizliklə əmr gözləyirik ki, tez zamanda qədim Zəngəzur torpaqlarımızı da işğaldan azad edək. Bunun üçün canımızdan keçməyə hazırıq".

*Ardı 2-ci səhifədə*



Sonra şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan “Hamı bir nəfər, bir nəfər hamı üçün!” şüarını səsləndirmişdir.

Ali Məclisin Sədri xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırmış, digərlərinə təşəkkür elan etmiş, yaradılan şəraitlə maraqlanmış, komanda müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti, mövcud topoqrafik və taktiki şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, Əlahiddə Ümumqoşun Ordunun dəniz səviyyəsindən 3000 metrdən artıq yüksəkliklərdə yerləşən bölmələrində 2021-ci ilin ötən dövrü ərzində hərbi təyinatlı obyektlərin tikintisi uğurla davam etdirilərək, ümumilikdə, 11 müdafiə mövqeyində yeni əsgər yataqxanaları tikilmiş, mövcud olanlar əsaslı təmir edilmişdir. Müdafiə mövqelərini daimi elektrik enerjisi ilə təmin etmək üçün yeni günəş panelləri quraşdırılmışdır. Çətin dağlıq şəraitdə yerləşən bölmələrdə, dayaq məntəqələri və mövqelərdə müşahidə məntəqələri, səngər və əlaqə yolları əlverişsiz hava şəraitinə uyğunlaşdırılmışdır. Bölmələrdə əsas və ehtiyat səngərlər, mövqelər və müşahidə məntəqələri salınaraq dayaq məntəqələri təkmilləşdirilmişdir.

Sıldırım qayalıqların arasında aparılmış mühəndis işləri nəticəsində əvvəllər uzun vaxt sərf edilən yolu bu gün qısa zamanda qət etmək mümkündür. Ümumilikdə, mühəndis texnikalarının köməyi ilə yaşayış məntəqələri və müdafiə mövqeləri arasında 70 kilometrlik hərəkət yolu yenidən çəkilmiş və 200 kilometrdən artıq təminat yolu təkmilləşdirilərək bərpa edilmişdir.



## Müdafiənin etibarlı təşkili təsərrüfat sahiblərinə geniş imkanlar açır





Avqustun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Təkəqaya yaylaqlarında Ordubad rayonunun Nüsnüs kəndindən olan oba sakinləri ilə görüşmüş, onların qayğıları ilə maraqlanmış, söhbət etmiş, işlərində uğurlar arzulamışdır.

Bildirilmişdir ki, ərazinin etibarlı müdafiəsi heyvandarlar üçün geniş imkanlar yaradıb. Ərazidəki yaylaqların otlaq sahələri artırılmışdır. Yolların çəkilməsi gediş-gəlişi də xeyli asanlaşdırmışdır. Yüksək dağlıq ərazi olmasına baxmayaraq, təsərrüfatlara mütəmadi olaraq baytarlıq xidməti də təşkil olunur.

Yaradılan şəraitə görə oba sakinləri dövlətimizə minnətdarlıq etmişlər.

Sonra Ali Məclisin Sədri Zəngəzur silsiləsinə baxmış, Ordubad çayını qidalandırmaq üçün Zəvvar arxında aparılan təmizlik - bərpa işləri ilə də maraqlanmışdır.

Məlumat verilmişdir ki, 2016-cı ildə arx bərpa olunmuş, bu gün isə Zəvvar arxında təmizləmə, genişlətmə və bərkitmə işləri görülür.

Arxın əhəmiyyətini vurğulayan Ali Məclisin Sədri demişdir ki, bu arx vasitəsilə nə qədər insan əkin işləri ilə məşğul olur. Həmçinin Əylis kəndindəki kəhrizlərdə sular artmaqla bərabər, taxıl əkilməyən yerlər də artıq əkilir. Ona görə Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə tapşırıq verildi ki, arxda təmizləmə işləri həyata keçirilsin.

Ali Məclisin Sədri görülən işlərə görə işçi heyətə təşəkkür etmişdir.

## Soyuq döyüş bölgəsində xidmət nümunəvi təşkil olunub



Avqustun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Soyuq bölgəsində yerləşən hərbi hissədə və müdafiə mövqelərində olmuşdur.

Şəxsi heyəti salamlayan Ali Məclisin Sədri demişdir: 1992-ci ildən bu ərazilər Azərbaycan əsgərinin nəzarətindədir. Əvvəlki illərdə bu cür şərait olmasa da, Azərbaycan əsgərinin şücaəti, hünəri imkan verdi ki, çətin şəraitdə xidmət təşkil edilsin. Sonrakı illərdə burada yaradılan şərait xidmətin təşkilini xeyli asanlaşdırdı. Ötən dövrdə bu ərazilərdə xidmət layiqincə yerinə yetirilib.

Şəxsi heyətə təşəkkür edən Ali Məclisin Sədri demişdir ki, Soyuq və Təkəqaya döyüş mövqeləri silsilə dağ yüksəklikləridir. Aşağı nöqtəsi Kilitdə 400 metrdən başlayıb, ən yüksək nöqtəsi 3700 metrlik Təkəqayada bitir. Bütün bu ərazilər ölkəmizin işğalçı ölkə ilə sərhədləri içərisində ən yüksək nöqtələrdəndir. Belə çətin relyefdə xidmətin təşkili və davam etdirilməsi qəhrəmanlıq tələb edir. Azərbaycan əsgərinin cəsarət və şücaəti hesabına bu yüksəkliklərdə hərbi xidmət nümunəvi təşkil olunub. Əminliyimi bildirirəm ki, şəxsi heyət yaradılan bu şəraitdən layiqincə istifadə edərək bundan sonra da torpaqlarımızın qorunmasında mərdlik və şücaət nümayiş etdirəcəkdir.

Ali Məclisin Sədri demişdir: Soyuq döyüş bölgəsinə dəfələrlə gəlmişəm. O qayalardan yolların çəkilməsi şücaət, zəhmət tələb edirdisə, o ərazilərdə xidmət aparmaq da qəhrəmanlıqdır. Bütün bunlar Azərbaycan əsgərinin nəyə qadir olduğunun göstəricisidir.



Həm Soyuq bölgəsində olan, həm də Təkəqaya ərazisində olan yüksəkliklərin əhəmiyyəti nəzərə alınaraq burada daim işlər aparıldı və xidmət lazımi səviyyədə təşkil edildi. Bu ağır şəraitdə hadisəsiz xidmətin təşkili də yüksək qiymətə layiqdir.

Baş leytenant Vüsal Rəhimli demişdir: “Ali Məclis Sədrinin Naxçıvan diyarının müdafiəçiləri ilə görüşü bizdə böyük ruh yüksəkliyi yaratmaqla bərabər, üzərimizə böyük məsuliyyət qoyur. Məqsədimiz yeni qələbələrə imza ataraq bütün tarixi torpaqlarımızda Azərbaycan bayrağını dalğalandırmaqdır”.

Ali Məclisin Sədri xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırmış, digərlərinə təşəkkür elan etmiş, yaradılan şəraitlə maraqlanmışdır.

*Ardı 3-cü səhifədə*







Bildirilmişdir ki, yenidən qurulan yataqxana, yeməkxana, anbarlar, çörək sexi və digər binalarda təhlükəsiz və rahat şəraitdə xidmətin təşkili təmin olunmuşdur. Buraya içməli su xətti çəkilmiş, istilik sistemi quraşdırılmışdır. Tibb məntəqəsində lazımi dərman vasitələri qoyulmuşdur. Şəxsi heyətin sağlamlığının qorunması diqqət mərkəzindədir.

İdeoloji otaqda hərbi və bədii ədəbiyyatlar qoyulmuş, müxtəlif məlumat stendləri asılmışdır. Döyüş hazırlığının ümumi hərbi elmi əsaslarla öyrədilməsi, hərbi vərdişlərin daim təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılır.

Anbarlara baxış zamanı məlumat verilmişdir ki, əsgərlərin qidalanması da günün nizam qaydasına uyğun təşkil olunmuşdur. Anbarda ərzaq ehtiyatı yaradılmışdır. Yüksək kalorili məhsulların qida rasionuna daxil edilməsi qış aylarında əsgərlərin sağlamlığının qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Əşya anbarında da lazımi geyim dəstləri və digər məişət əşyaları vardır.





Sonra Ali Məclisin Sədri digər bölmələrdə olmuş, tabor mərkəzində və dayaq məntəqələrində hərbi qulluqçuların mənəvi-psixoloji durumu və xidmətin təşkili ilə maraqlanmışdır.

Ön xətdə xidmət edən şəxsi heyətlə görüşən Ali Məclisin Sədri demişdir ki, siz Azərbaycan torpaqlarını qoruyursunuz. Xidmətinizin vacibliyinin bir göstəricisi də odur ki, bu ərazilərin qorunması həm də insanların rahat yaşayışına xidmət edir. Bunlar hamısı sizin xidmətinizin müqabilində mümkün olub. Ona görə də bu illər ərzində lazımi şəraitin yaradılmasına çalışılmış və bu gün deyə bilərik ki, Soyuq bölgəsində xidmətin təşkili ilə bağlı işlər qaydasındadır.

Ali Məclisin Sədri Soyuq bölgəsində qüsursuz və hadisəsiz xidmətin təşkilinə görə əsgər, gizir və zabitlərə təşəkkür edərək demişdir: "Yaradılan şərait işin bir tərəfidirsə, əsas məsələ isə xidməti düzgün aparmaqdır. Bunu isə sizlər həyata keçirirsiniz. Sizin timsalınızda əminliklə deyə bilərik ki, Azərbaycan Ordusu sərhədlərimizi layiqincə qoruyur. Eşq olsun Azərbaycan Ordusuna!"

Əsgərlərdən Cavid Cabbarov və Natiq Babazadə demişlər: "Qədim yurd yerimiz olan Naxçıvan diyarında xidmət etmək bizim üçün fəxrdir. Ona görə ki, bizim burada xidmət aparmağımız üçün hər bir şərait yaradılmışdır. Yaradılan şəraitə görə dövlətimizə minnətdarlığımızı bildiririk. Söz veririk ki, hər zaman ayıq-sayıq xidmət aparacaq, verilən əmr və tapşırıqları layiqincə yerinə yetirməyə daim hazır olacağıq".



Sonra şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün!" şüarını səsləndirmişdir.

Ali Məclisin Sədri xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırmış, digərlərinə təşəkkür elan etmiş, yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, binalarda əsgər və zabitlər üçün yataq yerləri, ideoloji, məişət, tibb və xidməti otaqlar, mətbəx, yeməkxana, əşya və ərzaq anbarları mövcuddur.

Ali Məclisin Sədri şəxsi heyətin qidalanması ilə maraqlanmışdır.

Bölmələrin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan binalar keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla, müxtəlif növ dayanıqlı rabitə, daimi işıq və istilik sistemi ilə təchiz edilmişdir. Burada köhnə elektrik aqreqatları yeni 50 kilovoltluq "GENPOWER" markalı elektrik aqreqatları ilə əvəz olunmuş, ərazidə açıq idman qurğuları quraşdırılmışdır.

Ali Məclisin Sədri mövqelərin möhkəmləndirilməsi, təkmilləşdirmə işlərinin davam etdirilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

Gətirilmiş müxtəlif ərzaq məhsulları anbarlara təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan gömrükçülərinin sayıqlığı nəticəsində narkotik qaçaqmalçılığı cəhdinin qarşısı alınıb




Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində Naxçıvan gömrükçüləri tərəfindən daha bir uğurlu əməliyyat həyata keçirilib. Belə ki, Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Türkiyə Respublikasına gedən Türkiyə Respublikası vətəndaşının idarə etdiyi 34DZ1302/34EHJ815 dövlət nömrə nişanlı "DAF" markalı nəqliyyat vasitəsinə Şahtaxtı gömrük sərhəd-buraxılış məntəqəsində gömrük baxışı həyata keçirilən zaman əməkdaşların sayıqlığı nəticəsində nəqliyyat vasitəsinin yanacaq çənində xüsusi olaraq hazırlanmış və aşkarlanması çətinləşdirilmiş saxlanc yerində gizlədilmiş maye halında 191 litrə yaxın psixotrop maddə – metamfetamin aşkarlanıb.

Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə (qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi) cinayət işi açılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Daha bir peşə kursunu bitirənlərə sertifikatlar təqdim olunub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların səmərəli məşğulluğunun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə əlverişli zəmin yaradıb.



Bu istiqamətdə görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Naxçıvan Regional Peşə Tədris Mərkəzində daha bir peşə kursu başa çatdırılıb. Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva peşə kurslarının təşkilinin ixtisaslı kadr hazırlığındakı əhəmiyyətindən danışıb. Qeyd edilib ki, bu gün başa çatdırılan dayə hazırlıq kursu da muxtar respublika ərazisində yerləşən uşaq bağçalarının kadrlara olan tələbatının ödənilməsində mühüm rol oynayacaqdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aparatının rəhbəri Vüsal Süleymanlı ötən dövr ərzində peşə kurslarının təşkili çərçivəsində görülən işlər və tətbiq olunan yeniliklər haqqında məlumat verib. Bildirilib ki, təkcə cari ilin birinci yarısı ərzində mərkəzdə müxtəlif peşələr üzrə 9 kurs təşkil olunub, ümumilikdə, bu kurslara 151 müdavim cəlb edilib.

Sonra dayə peşə kursunu uğurla bitirən müdavimlərə müvafiq sertifikatlar təqdim olunub.

Qeyd edək ki, Naxçıvan Regional Peşə Tədris Mərkəzində hazırda bərbər, xalçaçı peşə hazırlığı, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər və kabel xətlərinin quraşdırılması və təmiri üzrə rabitə montyoru ixtisasartırma kursu üzrə 59 müdavim tədrisi davam etdirir.

**✍ Aytac CƏFƏRLİ**

## Naxçıvanda Aşura günü qanvermə aksiyaları təşkil edilib



***İslam tarixində dini mahiyyət kəsb edən, Məhərrəm ayının 10-cu günü – Aşura, bununla bağlı keçirilən mərasimlər yalnız təziyə xarakteri daşımayıb, həm də haqq, ədalət tərəfdarı İmam Hüseynin yolunun davam etdirilməsi, İslam dininə sadiqlik deməkdir.***

Avqustun 19-da – Aşura günü muxtar respublikada keçirilən Aşura mərasimlərində də insanlar bu mənəvi dəyərlər ətrafında həmrəy olmuş, könüllü qanvermə aksiyaları keçirilmiş, ehtiyacı olanlara həyat verilmişdir.

Aşura günündə ənənəvi keçirilən qanvermə aksiyaları ötən il olduğu kimi, bu il də pandemiya səbəbindən məscidlərdə deyil, səhiyyə müəssisələrində – Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Diaqnostika Müalicə Mərkəzində, rayon mərkəzi xəstəxanalarında, eləcə də Kəngərli rayonunun Xok, Qarabağlar kənd həkim ambulatoriyalarında, Culfa rayonundakı Bənəniyar, Babək rayonundakı Qahab, Zeynəddin kənd həkim ambulatoriyalarında, Cəhri, Nehrəm qəsəbə sahə xəstəxanalarında təşkil olunub. Sosial məsafə gözlənilməklə sanitar-gigiyena qaydalarına ciddi əməl edilib, donorların və tibb işçilərinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri təhlükəsizlik tədbirləri həyata keçirilib. Həkim briqadaları əvvəlcə donorlarda koronavirus, arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün müayinələr aparıb, sonra müvafiq qan qruplarına uyğun qan götürülüb. Dindarlar sivil qaydada, könüllü olaraq qanvermə aksiyasında iştirak ediblər.

Babək rayonunun Nehrəm qəsəbə sakini, dindar Tofiq Abdullayev deyib:

– Muxtar respublikamız inkişaf edir, abadlaşır, quruculuq işləri aparılır. Bununla yanaşı, mənəvi dəyərlərimiz də qorunur, yeni məscidlər tikilir, dindarlar üçün ibadət şəraiti yaradılır. Aşura mərasimlərinin İslamın dəyərlərinə uyğun qeyd olunması da bu tədbirlərin davamıdır. Tofiq Abdullayev dini-mənəvi dəyərlərimizin yaşadılması sahəsində həyata keçirilən tədbirlərə görə muxtar respublika dindarları adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında qan verən şəhər sakini Rəşid Allahyarov qan verməklə çox böyük məmnunluq və mənəvi rahatlıq hissi keçirdiyini vurğulayıb:

– Biləndə ki, sənin verdiyin qan kiminsə həyata qovuşdurur, kiminsə qəlbində sevinc, üzündə təbəssüm yaradır, fərəh hissi keçirirsən. Dünyada bundan məhrəm, bundan fəxarətli nə ola bilər? Yaşayırsan və kiminsə yaşamağı üçün yardımçı olursan. Tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi ən münasib əzadarlıq nümunəsidir. Ümidvarıq ki, inşallah, dindarlarımız bu il də humanist ənənəni davam etdirərək səhiyyə ocaqlarında İmam Hüseyn xatirinə ehsan niyyəti ilə qan verəcəklər.

Günorta saatlarınadək davam edən aksiyada, bütövlükdə, 504 nəfərdən götürülən 255,1 litr qan qrupları müəyyənləşdirilərək ikili və üçlü torbalarda Qan Bankına təhvil verilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Xalqımızın mədəni, elmi, siyasi səviyyəsinin yüksəlməsində kitab böyük əhəmiyyətə malikdir. Əlbəttə, kitabın ərsəyə gəlməsi nəşriyyat prosesindən keçir və hər bir vəsaitin nəşri müəyyən məqsəd və vəzifəni yerinə yetirir. Əsərin nəşriyyat-redaksiya prosesində formalaşması, çapdan buraxılması nəşriyyat fəaliyyəti ilə əlaqədardır. Müasir texnoloji yeniliklərlə nəfis şəkildə çap olunmuş kitablar mütaliəsevənlər üçün, sözün əsl mənasında, ən dəyərli hədiyyədir. Əgər belə bir hədiyyəni Naxçıvan kimi qədim elmi, ədəbi və mədəni tarixi keçmişə malik torpaqda yaşayanlara təqdim etsək, bu onların yaddaşında daim qalacaq.***

## Yeni sərgi-satış mərkəzi öz çap məhsulları ilə alıcıların ixtiyarındadır



Naxçıvanda fəaliyyət göstərən “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin çap məhsullarının da, bu mənada, yüksək elmi-mədəni və publisistik dəyəri vardır. Elə bu səbəbdən “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni kompleks istifadəyə verilmiş, burada ən müasir mətbəə avadanlıqları quraşdırılmış, maddi-texniki baza gücləndirilmişdir. Birliyin Naxçıvan şəhərindəki Kitab Evində yeni sərgi-satış mərkəzinin yaradılması bu sahədə görülən işlərin davamıdır. Fəaliyyətə başladığı ilk günlərdən muxtar respublikanın müxtəlif idarə və təşkilatları özlərinə lazımi dəftərxana vəsaitlərini buradan əldə edirlər. Biz də bununla bağlı ətraflı məlumat almaq üçün həmin ünvana yollandıq.

Burada olarkən Naxçıvan Dövlət Universitetinin coğrafiya müəllimi Aytən Novruzlu ilə qarşılaşdıq. Yeni açılmış müəssisə ilə bağlı fikirlərini öyrəndik. Müsahibim bildirdi ki, burada yüksək səviyyədə, bütün standartlara uyğun keyfiyyətlə hazırlanmış məktəbli və dəftərxana ləvazimatları var. Sərgi-satış mərkəzində yaradılmış “Nəşriyyat xidmətləri” bölməsində mətbəə işlərinin görülməsi üçün çoxfunksiyalı çap avadanlıqları fəaliyyət göstərir. Biz də bu avadanlıqların köməyi ilə elmi məqalələrimizi, kitablarımızı çox uzağa getmədən burada keyfiyyətlə çap edə bilərik. Bununla bərabər, təhsil müəssisələrimizdə çalışan müəllimlərimizin illik və gündəlik dərs planları, şagirdlərimiz üçün məktəbli kitabçalarının satışını görə bilərik. Burada Naxçıvanın tarixini, milli dəyərlərimizi əks etdirən kitablar da satışa çıxarılıb. Deyə bilərəm ki, mərkəzin bu şəkildə fəaliyyət göstərməsi şagirdlərimizə, tələbələrimizə, geniş auditoriyaya diyarımızın daha yaxından öyrənilməsində böyük rol oynayacaqdır.





Yeni açılmış mərkəzin müştərilərə hansı xidmətləri göstərdiyini öyrənmək üçün satış müdiri Mirələsgər Seyidovla həmsöhbət olduq. Öyrəndik ki, satışda müxtəlif mövzuları əhatə edən elmtutumlu, ictimai, bədii kitablar satılır. Hər hansı bir hədiyyəlik miniatür kitabın sifarişlə hazırlanması, ümummilli lider Heydər Əliyevə həsr olunmuş ədəbiyyatların, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi üzvlərinin əsərlərinin, oxunması zəruri olan kitabların satışı da həyata keçirilir. Satışda olan kitablardan, demək olar ki, hamısına müraciət olunur. Ən çox alınan kitablar sırasında isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti” kitabıdır. Bununla yanaşı, “Kitabi-Dədə Qorqud” dastanına, eyni zamanda dünya ədəbiyyatından Teodor Drayzerin “Dahi” romanına daha çox üz tutulur. Mirələsgər müəllim ilə söhbət zamanı onu da vurğuladı ki, satışda olan nəşriyyat məhsullarının üzərində muxtar respublikamızın təbliği məqsədilə diyarımıza aid yerli abidələrimizin rəsmləri əks olunub. Eyni zamanda 44 günlük Vətən müharibəsində işğaldan azad edilmiş torpaqlarımız və onların geri alınmasının tarixləri məktəbli kitabçalarının arxasında qeyd olunub. Məhsulların satışı müvafiq qiymətlərdədir.

***“Muxtar respublikada nəşriyyat işi yüksək səviyyədə təşkil olunmuşdur. Bu da mətbəə mədəniyyətinin formalaşmasının və ümumi inkişafın göstəricisidir. Artıq muxtar respublikada məktəbli ləvazimatlarının, idarə və müəssisələrə aid blankların çapı həyata keçirilir. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin Sərgi-Satış Mərkəzinin fəaliyyəti həm çap olunmuş məhsulların sərgi-satışını təşkil etmək, həm də dövlət büdcəsi ilə maliyyələşən təşkilatları dəftərxana ləvazimatları ilə təmin etməkdən ibarətdir. Birlik geniş imkanlara malikdir və bundan da səmərəli istifadə olunmalıdır...”*** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun mərkəzin açılışı zamanı qarşıya qoyduğu bu vəzifəni bu gün həmin təşkilatda çalışanlar özləri üçün prinsipinə çevirib. Biz də inanırıq ki, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin Sərgi-Satış Mərkəzi bundan sonra da öz fəaliyyətini uğurla davam etdirəcək.

**Aytac CƏFƏRLİ**

***Vətən məhəbbəti insanda ilk məktəb illərindən formalaşmağa başlayır. Belə insanlar istər təhsildə, istərsə də ictimai həyatda başqalarından seçilirlər. Ürəklərinin dərinliklərində saxladıqları fikirlərini heç vaxt hər yerdə nümayişkaranə bildirmir, hər şeyi ölçüb-biçməyi bacarır və lazım olan yerdə nəyə qadir olduqlarını büruzə verirlər.***

***Əfsanəyə dönən ömürlər***

## Andına sadiq oldu Sadiq



Söhbət açacağımız qəhrəmanımız məhz belə Vətən övladlarından biri idi. O istər orta təhsil aldığı məktəbdə, istərsə də yaşayıb boya-başa çatdığı məhəllədəki dostları arasında yüksək şəxsi keyfiyyətləri ilə fərqlənirdi; həmişə yoldaşları ilə anlaşılmaz məsələlərdə özünü irəli verər, haqlının yanında olmaqla ədaləti yerinə qoymağa çalışardı.

Haqqında danışdığım bu sarıbəniz, hündürboy, qamətli, cəsur və İkinci Qarabağ müharibəsində öz şücaəti ilə bütün Azərbaycan gənclərinə nümunə olan şəhid, mayor Sadiq Həsənovdur. Onun haqqında keçmiş zamanda danışmaq ağır olsa da, o Sadiqdən bəhs edəcəyik ki andına sadiq qalaraq Vətənin müdafiəsi üçün, torpaqların geri alınmasından ötrü illərlə erməni faşizminə qarşı ürəyindəki nifrəti döyüş meydanında deməyə, göstərməyə yollandı. Onu və onun kimi oğulları Vətən çağırmış, Sadiq də digər igid döyüş yoldaşları kimi Vətənin qisasını düşməndən almağa getmişdi.

İlk döyüşə girdiyi gün onun 34 yaşı yenicə tamam olmuşdu. Ailəsi ilə son görüşü isə həmin gündən cəmi 5 gün sonra olacaqdı...

Sadiq 1986-cı ilin sentyabr ayında Naxçıvan şəhərində anadan olmuşdu, 1992-2000-ci illərdə Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə, 2000-2003-cü illərdə Cəmşid Naxçıvanski adına Naxçıvan Hərbi Liseyində, 2003-2007-ci illərdə isə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsil almışdı. Ali Hərbi Məktəbdə motoatıcı ixtisasını bitirən Sadiq 2007-ci ilin iyul ayından 2008-ci ilin iyun ayınadək Azərbaycan Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində dinləyici kimi iştirak edərək leytenant rütbəsi ilə həmin ildən başlayaraq Silahlı Qüvvələrin müxtəlif hissələrində motoatıcı taqım komandiri, tank əleyhinə taqım komandiri, nizami hissə rəisi, qərargah rəisinin şəxsi heyəti-uçotu üzrə köməkçisi, xüsusi təyinatlı hərbi hissədə qərargah rəisinin köməkçisi və nəhayət, 2020-ci ilin aprel ayından “N” hərbi hissədə təlim-tərbiyə işləri üzrə rəis müavini kimi qulluq etmişdi.

İkinci Qarabağ müharibəsinin başlandığı gündən rəhbərlik etdiyi xüsusi təyinatlı taqımı ilə döyüşlərə qatılaraq düşmənə qarşı böyük şücaətlər göstərirdi. Çalışırdı ki, döyüşçü yoldaşları hər bir tapşırığa gedərkən yüksək əhvali-ruhiyyədə olsunlar. Bunun üçün onlarla lazımi söhbətlər aparır, vəzifələrini onlara izah edir, özlərini qorumalarını təkrar-təkrar tapşırırdı.

Sadiq Füzulinin, Cəbrayılın, Zəngilanın düşmən işğalından azad edilməsində əsl zabit şücaəti göstərmişdir. Xudafərin körpüsünə üçrəngli, ay-ulduzlu bayrağımızı sancanlardan biri də o olmuşdur.

Keçdiyi döyüş günlərində ailəsinin ondan narahat olduğunu bilirdi. Bilirdi ki, iki körpə qız balası – Lalə və İnci onun yolunu səbirsizliklə gözləyirlər. Böyük qardaşı Toğrulla tez-tez telefon əlaqəsi saxlayırdı. Sadiqin atası Əli Həsənov uzun müddət Naxçıvan Şəhər Elektrik Şəbəkəsində qüsursuz fəaliyyət göstərmiş təqaüdçüdür, anası Şövkət xanım 2019-cu il sentyabr ayında vəfat etmişdir. Həyat yoldaşı Sona xanım Naxçıvan Musiqi Kollecində müəllim kimi fəaliyyət göstərir.

Sadiqin son döyüşü oktyabrın 20-də olub. Həmin gün ağır döyüşlər aparan taqımı ilə düşmənin çoxsaylı canlı qüvvəsini məhv edir və kəndlərimiz Sadiq və Sadiq kimi igid eloğullarımızın qəhrəmanlığı hesabına düşməndən azad olunur. Lakin son anda qəhrəmanlıqla şəhid olur.

Hərbi vəzifəsini yerinə yetirdiyi illər ərzində döyüş və ictimai hazırlıqda əldə etdiyi yüksək nailiyyətlərə görə və hərbi hissənin yaradılmasının 20 illiyi münasibətilə fəxri fərmanla, 2013-cü ildə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən “Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008) yubiley medalı” ilə, 2015-ci ildə isə nazirlik tərəfindən “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli medalla təltif olunan Sadiqi bir vaxtlar öz yaxınları tanıyırdısa, bu gün bütün Azərbaycan tanıyır.

Bu gün ailəsi də, qohum-əqrəbası da, təhsil aldığı məktəblərin kollektivləri də qürur duyurlar ki, leytenant kimi hərbi qulluğa başlayan, mayor kimi dünyasını dəyişərək şəhidlik zirvəsinə ucalan Sadiq Vətən qarşısında öz andına sadiq qaldı. Bununla da digər şəhidlərimiz kimi sübut etdi ki, o, əsl Azərbaycan oğludur, öz doğma yurdunun azadlığı, ərazi bütövlüyü onun üçün ən qiymətli sərvətdir.

İgid eloğullarımız xalqımızı 30 illik həsrətdən vüsala qovuşdurmaqla ruhları başımız üstdə gəzən Sadiq və Sadiq kimi qəhrəman övladlarımızın arzuları artıq çin olub. Ruhları şad olsun.

**Kəmaləddin AXUNDOV**

***Bildiriş***

“Gətir” Məhdud Məsuliyyətli Cəmiyyətinin adı dəyişdirilərək “Gətir” Karqo MMC-yə çevrilmişdir.

***İtmişdir***

Bağırov Əli Zeynalabdin oğlunun adına olan 0456264 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 677